***Azərbaycan Prezidenti İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin, ilk növbədə, əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında real ifadəsini tapır. Məhz bunun nəticəsidir ki, Azərbaycan hazırda güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, güclü sosial siyasətə malik bir ölkə kimi tanınır. Prezident İlham Əliyevin xüsusilə son illərdə ardıcıl, geniş miqyas alan sosial islahatların növbəti mərhələsinə başlanmasını şərtləndirən yeni sərəncamları da bu fikrin bariz ifadəsidir.***

***Xatırladaq ki, dövlətimizin başçısının gələn ilin ilk sosial paketinə daxil olan yeni sərəncamları da əhalinin sosial müdafiəsinin gücləndirilməsinin dövlət siyasətində prioritet olduğunu təsdiqləyir. Aşağıda diqqətə çatdırdığımız iqtisadçı-ekspert alimlərin fikirlərində də bu məsələlərdən bəhs olunur.***

# Yeni sosial dəstək paketi əhalinin rifahını daha da yaxşılaşdıracaq



***Vəkil HÜSEYNOV, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru:***

– Prezident İlham Əliyevin yeni sərəncamları ölkəmizdə sosial islahatların yeni mərhələsinin başlanmasından xəbər verir. Bu mərhələ isə dövlətimizin başçısının cari il oktyabrın 16-da imzaladığı "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsaslanır. Yeri gəlmişkən, sənəd əhalinin, xüsusilə həssas qruplardan olan vətəndaşların sosial rifahını qorumağa xidmət edir.

Sərəncam beynəlxalq bazarlardakı proseslərin respublikadaxili qiymətlərə sirayət etməsinin ölkə əhalisinə, xüsusilə həssas əhali qruplarına mənfi fəsadlarının yumşaldılması və əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır. Beləliklə, aztəminatlı əhali təbəqəsi üçün kommunal tariflərin dəyişdirilməsi onların gəlirlərinin artırılması istiqamətində atılan addımlarla uzlaşdırılır.

Xatırladım ki, Azərbaycan Prezidentinin "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamında ölkə əhalisinin rifah halının yaxşılaşdırılmasının aparılan sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən biri olduğu, son illərdə isə bu istiqamətdə ciddi irəliləyişlər əldə edildiyi, əhalinin sosial müdafiəsinin gücləndirildiyi, sosial ödənişlərin, əməkhaqlarının artırılması istiqamətində ardıcıl islahatlar həyata keçirildiyi bildirilib. Bu məqsədlə hələ 2019-cu ildə iki sosial islahat zərfi qəbul olunaraq reallaşdırılıb, müavinət və təqaüdlərin məbləğinin orta hesabla 92 faiz, əmək pensiyasının minimum məbləğinin 72 faiz, minimum əməkhaqqının 92 faiz, dövlət büdcəsindən maliyyələşdirilən qurumlarda işləyənlərin əməkhaqlarının orta hesabla 50 faiz artırılması gerçəkləşdirilib. Görülmüş tədbirlər nəticəsində 2018-ci ilin əvvəli ilə müqayisədə orta aylıq nominal əməkhaqqının məbləğində 39 faiz, əmək pensiyalarının orta məbləğində 60 faiz, sosial müavinətlərin orta məbləğində 2 dəfə, Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin orta məbləğində isə 2,2 dəfə artım əldə olunub.

Bu il ölkəmiz COVID-19 pandemiyasının yaratdığı sarsıntıları geridə qoyaraq, inamlı şəkildə iqtisadi bərpa yoluna qayıdıb. Bu, dünya miqyasında pandemiyaya qarşı peyvəndlərin ərsəyə gətirilməsi, ölkəmizdə isə insanlarımızın bu xəstəlikdən qorunması istiqamətində dövlət tərəfindən əhatəli və səmərəli sosial-iqtisadi tədbirlərin, xüsusilə genişmiqyaslı peyvəndləmə kampaniyasının keçirilməsi, həmçinin 2020-ci ildə əhalinin sosial baxımdan həssas qruplarına maliyyə və sosial dəstək göstərilməsi, eləcə də pandemiyadan zərər çəkən iqtisadi sahələrdə fəaliyyət göstərən sahibkarlara, qurumlara vergi və bank-kredit güzəştlərinin verilməsi sayəsində mümkün olub.

Bütün bunlarla bərabər, dünya miqyasında iqtisadi fəallığın bərpası və məcmu tələbin artması templərinin vaxtilə dayandırılmış istehsal, nəqliyyat-logistika və təchizat güclərinin iqtisadi dövriyyəyə qaytarılması sürətini xeyli üstələməsi beynəlxalq bazarlarda bir çox əmtəələrin qiymətlərinin əhəmiyyətli dərəcədə qalxmasını şərtləndirərək yeni çağırışlar yaradıb. Belə bir şərait isə ölkəmizə idxal olunan əmtəələrin, o cümlədən, bir sıra ərzaq məhsullarının qiymətlərinin artımına səbəb olub və nəticə etibarilə sosial baxımdan ən həssas əhali qruplarının rifah halına mənfi təsir göstərib.

Prezident İlham Əliyevin sosial sahə ilə bağlı yeni islahatlar paketində də bu məsələ prioritet istiqamət təşkil edir. Dövlətimizin başçısının imzaladığı yeni sərəncamlarla vətəndaş rifahının təminatı və həssas qrupların sosial müdafiəsi ölkə rəhbərinin siyasətində başlıca istiqamət olduğunu bir daha göstərir.

Qeyd edim ki, dövlət başçısının yeni imzalanan sərəncamlarına əsasən, 2022-ci ildə minimum əməkhaqqı və vahid tarif cədvəli üzrə işləyənlərin əməkhaqqının artımı 800 min nəfərə şamil olunacaq. Dövlət sektoru üzrə 400 min, özəl sektor üzrə bir o qədər işçinin mövcud əməkhaqları yanvar ayından artacaq.

Respublikada minimum əməkhaqqı artımı 800 min nəfər vətəndaşın gəlirlərinə müsbət təsir edəcək. Gələn il minimum əməkhaqqı 2022-ci il üçün nəzərdə tutulan yaşayış minimumunu (210 manat) 43 faiz üstələyəcək. Digər tərəfdən, bu artım ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti göstəricisinin də növbəti dəfə yüksəlməsinə imkan verəcək.

Ümumən son 4 ildə minimum əməkhaqqı 2,3 dəfə, orta aylıq əməkhaqqı 37 faiz, median əməkhaqqı 74 faiz, əməkhaqqı fondu 92 faiz artıb. Minimum pensiyada 82 faiz, orta aylıq pensiyada 60 faiz, müavinət və təqaüdlərdə orta hesabla iki dəfə artım baş verib.

Prezident İlham Əliyevin 2021-ci il dekabrın 20-də imzaladığı yeni sərəncam və fərmanlarla müavinət və təqaüdlərin artırılması isə 732 min şəxsi, o cümlədən, 132 min doktorant və tələbəni əhatə edərək onların müavinət və təqaüdlərinin 2022-ci ilin əvvəlindən artırılmasını təmin edir. Bu artımlar üçün illik əlavə 200 milyon manat ayrılıb. Həmin fərman və sərəncamlarla müavinət və təqaüd artımı əlilliyi olan şəxsləri və I dərəcə əlilliyi olan şəxslərə qulluq edənləri, sağlamlıq imkanları məhdud uşaqları və onlara qulluq edənləri, yaşa görə müavinət alanları, ailə başçısını itirməyə görə müavinət alanları, müddətli hərbi xidmətdə olanların uşaqları, uşaqların qəyyumlarını, beşdən çox uşağı olan qadınları, bir yaşadək uşağı olan (ünvanlı sosial yardım alan) aztəminatlı ailələri, övladlığa uşaq götürənləri, işləməyən pensiyaçı elmlər və fəlsəfə doktorlarını, "Xalq" və "Əməkdar" fəxri adı olanları, doktorant və tələbələri əhatə edir. Həmçinin uşağın doğulmasına görə birdəfəlik müavinət və dəfn üçün birdəfəlik müavinətlər artırılır.

2018-2021-ci illərdə sosial təminat üzrə illik xərclər 60 faiz və ya 2,4 milyard manat artaraq 6,4 milyard manata çatıb. Sosial təminatla əhatə olunanlar isə 160 min nəfər artaraq 2,56 milyon nəfərə çatıb. Qeyd edilən dövrdə 152 min şəxsə isə əlillik dərəcəsi təyin olunub, əlilliyi olan şəxslərə 150 minə yaxın reabilitasiya vasitəsi verilib.

**İnayət HÜSEYNOV, iqtisad üzrə fəlsəfə doktoru:**

–Dövlətimizin başçısı cənab İlham Əliyevin prezidentlik fəaliyyətində vətəndaşların rifah halının yüksəldilməsi, əhalinin bütün təbəqələri üçün bərabər sosial təminat sisteminin təkmilləşdirilməsi, insan kapitalının və sosial infrastrukturun inkişafına nail olunması, sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi hər zaman prioritet istiqamət olub.

Prezident İlham Əliyevin sosial islahatların növbəti mərhələsinə başlanmasını şərtləndirən yeni sərəncamları da son 18 ildə həyata keçirilən siyasətin, aparılan islahatların real həyatda təsdiqini əks etdirir, sosial-iqtisadi nailiyyətlərin davamlığından və dayanıqlığından xəbər verir. Təsadüfi deyildir ki, dünyada yaşanan ən ağır maliyyə və iqtisadi böhran şəraitində belə dövlətimizin başçısının çevik, praqmatik siyasəti sayəsində Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdırıb, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam icra edilib, iqtisadiyyatımız artıb. Bütün bunlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri xüsusi önəm kəsb edib.

Sonda bir məsələni də qeyd etmək istərdim. Bu gün ölkədə əmək haqlarının, müavinətlərin artırılması ilə yanaşı, iş yerlərinin yaradılmasına, özünüməşğulluğun təmin olunmasına da daim həssaslıqla yanaşılır. Ayrı-ayrı proqramların icrası zamanı bu məsələ xüsusi diqqətdə saxlanılır. Ölkənin güclü iqtisadi inkişafı, maliyyə imkanlarının artması da iş yerlərinin yaradılması prosesini sürətləndirir. Beləliklə, respublikada iqtisadi fəallığın davamlı şəkildə yüksəlməsi fonunda yeni iş yerləri açılır, bu isə təbii ki, insanların həyat səviyyəsinin daha da yaxşılaşmasında özünü qabarıq büruzə verir.

İş yerlərinin yaradılması, özünüməşğulluğun təmin olunması ölkədə işsizliyin kəskin şəkildə azalaraq 5 faizə enməsi ilə nəticələnib. Eyni zamanda, Azərbaycanda əmək və məşğulluq sahəsində həyata keçirilən islahatlar nəticəsində əmək qanunvericiliyi beynəlxalq əmək normalarına uyğunlaşdırılıb, əmək bazarının təkmilləşdirilməsi, əmək münasibətlərinin sosial dialoq, kollektiv müqavilələr və sazişlərlə tənzimlənməsi istiqamətində uğurlu nəticələr əldə olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin bu il oktyabrın 16-da imzaladığı "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam da əhalinin, xüsusilə həssas qruplardan olan vətəndaşların sosial rifahının qorunmasına yönəlib.

Bütün bu tədbirlər isə bir daha təsdiq edir ki, Azərbaycanın uğurlu sosial siyasəti var, cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul edən dövlət başçısı İlham Əliyevin yürütdüyü siyasətdə isə vətəndaşların mənafeyi öndə gəlir.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***